Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə «Böyük Qayıdış»

**Uzun fasilədən sonra müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz erməni işğalına son qoydu. 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsi 44 gün çəkdi. Əldə olunan hərbi uğur sayəsində 10 min kvadrat kilometrdən artıq ərazi işğaldan azad edildi. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur.**

# Azad rayonlarımıza "Böyük Qayıdış"a sürətlə yaxınlaşırıq - yollar, kəndlərin bərpası...

Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır. Bu "Böyük Qayıdış" vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaq.

Müharibədən sonra işğaldan azad edilmiş bölgələrimizdə sürətli şəkildə bərpa və quruculuq işlərinə start verildi. Bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə olunur. Məlum olduğu kimi, artıq Füzulidə beynəlxalq aeroport ötən ildən fəaliyyət göstərir. Sözügedən hava limanı 9 ay ərzində istifadəyə verildi. Zəngilanda, Laçın beynəlxalq hava limanları tikilir. Hazırda azad olunmuş ərazilərdə təhlükəsizliklə bağlı məsələlərin həll olunması ilə yanaşı, infrastruktur və sosial xidmətlərin təmin edilməsi ilə bağlı vəzifələr icra olunur. Dövlət tərəfindən yol infrastrukturu qurulur. Ötən il 101 kilometrlik Zəfər yolu istismara verildi. Həmçinin 81,6 kilometr uzunluğu olan Füzuli-Şuşa magistral yolunun tikintisi davam etdirilir. 121 kilometrlik Höradiz-Ağbənd dəmir yolunun artıq 23 kilometri çəkilib. O cümlədən, Bərdədən Ağdama həm yeni avtomobil yolu, həm də dəmir yolunun çəkilməsi həyata keçirilir. İşğaldan azad olunmuş torpaqların kifayət qədər böyük ərazini əhatə etməsi nəzərə alınaraq, burada iqtisadiyyatın bərpası çoxşaxəli yanaşmaya söykənən vahid konseptual dövlət proqramı əsasında həyata keçirilir. Yəni bütün işlər kompleks şəkildə görülür.



Azərbaycan dünyaya nümunə olacaq daha bir layihəni həyata keçirməyə hazırlaşır: işğaldan azad edilmiş ərazilərə - yenidən qurulan və bərpa olunan tarixi torpaqlarımıza "Böyük Qayıdış" başlanır. Bu layihə də dünyanın inkişaf trendinə uyğun işlənir və ən müasir texnologiyaların tətbiqi ilə reallaşdırılacaq. Artıq bu ildən başlayaraq mərhələ-mərhələ məcburi köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar.

**"Böyük Qayıdış" Azərbaycan tarixində möhtəşəm səhifə olacaq"**

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirli hesab edir ki, "Böyük Qayıdış"ın reallaşması Azərbaycan tarixində möhtəşəm səhifə olacaq: "2016-cı ildə həyata baş verən uğurlu Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi atəş altından çıxarıldı. Strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin azad edilməsi ilə kəndə əhalinin qayıtması üçün şərait yarandı. Qısa müddət ərzində ərazi mina və partlamamış hərbi sursatlardan təmizləndi. Ondan sonra bərpa işlərinə start verildi. 2017-ci ildə Cocuq Mərcanlı sakinləri öz yurdlarına qayıtdılar. Hələ o vaxt kənd sakinləri ilə görüşdə Prezident İlham Əliyev qeyd etdi ki, "Böyük Qayıdış" Cocuq Mərcanlıdan başlayır. Düz 3 il sonra o an gəlub çatdı. Şanlı ordumuz ərazilərimizi işğaldan azad etdi. 30 ilə yaxın davam edən işğala son qoyuldu. O baxımdan hesab edirəm ki, "Böyük Qayıdış" Azərbaycan tarixində möhtəşəm səhifə olacaq".

**"Ora qayıdan məcburi köçkünlər daimi iş yerləri ilə təmin ediləcək"**

Ekspertin fikrincə, bərpa quruculuq işlərinin müasir tələblərə uyğun aparılması olduqca önəmli göstəricidir: "Bu o deməkdir ki, ən müasir texniki vasitələrdən istifadə edilir. Bütün layihələr planlı şəkildə həyata keçiriləcək. İşğaldan azad olunan rayonların özünəməxsus iqtisadi potensialı nəzərə alınaraq sənaye sahələri, emal müssisələri, xidmət sektoru qurulacaq. Ora qayıdan məcburi köçkünlər daimi iş yerləri ilə təmin ediləcək. Qeyd olunduğu kimi, dövlət başçısının tapşırığı əsasında, işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması zamanı ən müasir texnologiyalar tətbiq edilir. "Ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji zonası" yaradılması kimi innovativ layihələrin icrasına başlanılıb. "Ağıllı kənd" layihəsi üzrə Zəngilan rayonunun Ağalı kəndində, ilkin mərhələdə, 200 fərdi yaşayış evi inşa edilir və sosial-texniki infrastruktur yaradılır. Artıq bu istiqamətdə görülən işlər yekunlaşır. Bu il Ağalı sakinləri öz ydrdlarına qayıdacaqlar. İstisna olunmur ki, bir sıra digər yaşayış yerlərinə də əhalinin qayıtması təmin ediləcək. İşğaldan azad edilmiş ərazilərə qayıdış uzunmüddətli prosesdir. Söhbət yüz minlərlə məcburi köçkünün daimi yaşayış üçün öz ata-baba yurduna qaytarılmasından, özü də beynəlxalq səviyyədə qəbul edilən təhlükəsizlik, könüllülük və layiqli həyat şəraitinin təmin edilməsi prinsipləri əsasında qaytarılmasından gedir".

**"Əhali ora qayıtdıqca ölkənin iqtisadi imkanları böyüyəcək"**

Ekspert onu da vurğuladı ki, "Böyük Qayıdış" sayəsində Azərbaycanın iqtisadi imkanları daha da artacaq: "Nəzərə almaq lazımdır ki, çox böyük ərazilərimiz işğal altında idi. Həmin ərazilər zəngin resurslara malikdir. Münbit torpaq sahələri, zəngin su ehtiyatları orada yerləşir. Bütün bunların iqtisadi dövriyyəyə cəlb edilməsi çox önəmli əhəmiyyət kəsb edəcək. Kənd təsərrüfatı məhsullarının istehsalı artacaq. Bu da imkan verəcək ki, bir sıra aqrar məhsullara olan tələbat yerli istehsal hesabına təmin edilsin. O cümlədən, oradakı mineral ehtiyatların çıxarılması sənaye sektorunun inkişafına müsbət təsir edəcək. Bir sözlə, əhali ora qayıtdıqca ölkənin iqtisadi imkanları böyüyəcək".

***Vidadi ORDAHALLI***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı Xəbər .- 2022.- 22-24 yanvar.- S.6.